


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 124 (23.766)

10 iyul 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


İcmal

## Milli Qurtuluşdan başlanan inkişaf və tərəqqi yolunun yolçusu – Naxçıvan

### Ötən ayın ümumi mənzərəsi bunu aydın təcəssüm etdirir

***Azərbaycanın dövlət müstəqilliyinin və Milli Qurtuluşunun bəhrələri bu gün onun Naxçıvan Muxtar Respublikasında daha aydın şəkildə öz təcəssümünü tapmaqdadır. Muxtar respublikada həyata keçirilən məqsədyönlü və davamlı inkişaf strategiyasından, genişmiqyaslı quruculuq işlərindən Şərur rayonuna da pay düşmüş, rayonun kəndləri yeni görkəmə qovuşmuş, Şərur şəhəri müasir şəhərlər sırasına daxil olmuşdur. İyunun 3-də rayonda Bayraq Meydanı, Şərur şəhər avtomobil yolları, yeraltı piyada keçidi və yeni yaşayış binası istifadəyə verilmiş, Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş şəraiti yaradılmışdır.***

Bayraq Meydanının istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qurğunu işə salmış, müstəqillik və dövlətçilik rəmzi olan üçrəngli dövlət bayrağımız əbədi yüksəkliyə ucalmışdır.

Tikintisinə ötən ilin aprel ayında başlanılan Bayraq Meydanındakı Bayraq dirəyinin hündürlüyü 36,5, bayrağın eni 8, uzunluğu isə 16 metrdir. Ümumi sahəsi 4 min 795 kvadratmetr olan meydanda geniş abadlıq işləri aparılmışdır.

İyunun 3-də 3 min metri iki, 8 min 200 metri isə dördzolaqlı olan 11 min 200 metrlik Şərur şəhər avtomobil yolları yenidənqurmadan sonra istifadəyə verilmiş, Ali Məclisin Sədri Şərur Şəhər Avtovağzal binasının tikintisi ilə də maraqlanmış, müvafiq göstərişlər vermiş, eyni zamanda Şərur şəhərində 28 May və Nizami küçələrini birləşdirən, uzunluğu 66, eni 2,6, hündürlüyü isə 2,1 metr olan yeraltı piyada keçidi istifadəyə verilmişdir.

Muxtar respublikada məskunlaşmanın artması və gənclərin sosial mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlərin davamı olaraq iyunun 3-də Şərur şəhərində yeni yaşayış binası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan binadakı 40 mənzildə yaradılan müasir kommunal şərait haqqında məlumat verilmişdir. Yaşayış binasının zirzəmisində yerləşən xidmət mərkəzində qadın gözəllik salonu, bərbərxana, dərzi, məişət, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərəcəkdir.

Əhalinin sağlamlığının qorunması, yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar-gigiyenik tədbirlərin təşkili və həyata keçirilməsi istiqamətində aparılan tədbirlərin davamı kimi, Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iyunun 3-də bu münasibətlə keçirilən tədbirdə Milli Qurtuluş Gününün bəhrələri olan yeni obyektlərin istifadəyə verilməsi münasibətilə rayon sakinlərini və kollektivi təbrik etmiş, muxtar respublikada hələ bir neçə il əvvəl gigiyena və epidemiologiya sahəsində əsaslı işlər görüldüyünü, bütün bunların dünyada yayılan pandemiyanın muxtar respublikada qarşısının alınmasında mühüm rol oynadığını vurğulamışdır. Ali Məclisin Sədri muxtar respublikanın epidemioloji pasportunun hazırlanması, dezinfeksiya tədbirlərinin fasilələrə uyğun aparılması, sanitar-gigiyenik qaydalara əməl olunması və kadr işinə diqqətin artırılması barədə tapşırıqlar vermişdir.

Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsinə dezinfeksiya tədbirlərinin daha keyfiyyətlə icra olunmasında vaxt itkisinin qarşısının alınması, avtomaks və dezinfektantların rahat daşınması üçün 7 nəfərlik işçi heyətinin, eyni zamanda istifadə edə biləcəyi "Changan" markalı avtomobil təqdim olunmuşdur.



Azərbaycanın Naxçıvan Muxtar Respublikası xarici siyasi-iqtisadi əlaqələrin inkişafı baxımından da ölkəmizin ümumi inkişafına töhfələr verməkdədir. İyunun 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının Yollar və Şəhərsalma naziri Məhəmməd Eslaminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüş, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə əlaqələrindən bəhs edərək nəqliyyat sahəsindəki əməkdaşlığa diqqəti çəkmişdir. Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Ulu öndərin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi təbii sərvətlərimizdən xalqımızın rifahı və ölkəmizin inkişafı naminə səmərəli istifadə olunur. Duzdağda yeni şaxtanın istifadəyə verilməsi də bu istiqamətdə görülən işlərin davamıdır. İyunun 9-da – Milli Qurtuluş Günü ərəfəsində Duzdağda yeni şaxta istifadəyə verilmişdir.

Qeyd edək ki, muxtar respublika üçün böyük iqtisadi əhəmiyyətə malik yeni duz şaxtası və istehsal kompleksi fəaliyyətə başladıqdan sonra birnövbəli iş rejimində müəssisənin illik istehsal gücü 15 min ton olacaqdır. Uzun illər bu şaxtadan istifadə olunması nəticəsində Naxçıvan duzunun istehsal həcmi artacaq, daxili tələbatın ödənilməsi ilə yanaşı, həm də xarici bazarlara çıxış imkanı yaranacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək vurğulamışdır ki, bu gün milli sərvətimiz olan Duzdağ tarixi-mədəni dəyəri, iqtisadi əhəmiyyəti, şəfaverici xüsusiyyəti və turizm cəlbediciliyi ilə dünyaya təqdim olunur. Qeyd olunmuşdur ki, duz ehtiyatından səmərəli istifadəyə diqqət artırılmalı, istismar qaydalarına əməl olunmalı, mədən işlərində və istehsal prosesində itki minimum həddə saxlanılmalı, Naxçıvan duzunun ixrac imkanları araşdırılmalı, xarici bazarlar öyrənilməli, məhsulun çeşidi və həcmi artırılmalı, keyfiyyətə və texniki şərtlərə xüsusi diqqət yetirilməli, standartların tələbi qorunmalıdır. Duz şaxtasına təhlükəsiz iş şəraitinin yaradılması məqsədilə yalnız xüsusi ixtisas hazırlığı olan mütəxəssislər cəlb olunmalı, təhlükəsizlik qaydaları və texnoloji rejim mütəmadi nəzarətdə saxlanılmalı, şaxtanın dağ-mədən-texniki, hidrogeoloji və ekoloji vəziyyəti davamlı yoxlanmalı, yeni istehsal komplekslərinin tikintisi qısa müddətdə başa çatdırılmalıdır.

Muxtar respublika rəhbəri bu işdə əməyi olanlara təşəkkürünü bildirdikdən sonra idarəetmə qurğusunu işə salmış, şaxtada ilk partlayış olmuş və duzun çıxarılmasına başlanılmışdır.

Ali Məclisin Sədri muxtar respublikada tunel-qazıntı işlərinin yerli şirkətlər tərəfindən uğurla həyata keçirildiyini bildirmiş, təhlükəsizlik qaydalarına əməl olunması və işçilər üçün kursların keçirilməsi barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2020-ci il 14 dekabr tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması təhsildə yeniliklərin, müasir texnologiyaların tətbiqinin gənclərin müasir dövrün tələbləri səviyyəsində təhsil almalarına hesablanmış mühüm dövlət sənədidir. Onu da qeyd edək ki, dünyada az sayda universitetdə texnopark vardır. Hazırda universitetin bakalavr üzrə 42 ixtisası, magistr üzrə 80 ixtisasdan 43-ü Texnologiyalar Parkının fəaliyyət sahəsinə daxildir. İyunun 16-da Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının təməlatma mərasimi keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, yeni qurulacaq texnopark üçün zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət yeni bina inşa olunacaqdır. Zirzəmidə texnoservis, nanoaraşdırmalar, biotexnologiyalar, prototip mərkəzləri, proqramlaşdırma və avtomatlaşdırma, kafe və təsərrüfat otaqları nəzərdə tutulmuşdur. Birinci mərtəbədə Şərur Sənaye Məhəlləsinin, Naxçıvan Məhsullarının, "Microsoft" şirkətinin, "Naxtel" 4G operatorunun, "CISCO", "KOICA", "Bakunity" və digər gələcək rezident şirkətlərin ofisləri yerləşəcəkdir. İkinci mərtəbədə innovasiya, layihələrin əlaqələndirilməsi, informasiya texnologiyaları xidmətləri, süni intellekt elmi-tədqiqat mərkəzləri, incəsənət, dizayn və memarlıq layihələri xidməti, elektronika və digər iş otaqları olacaqdır. Üçüncü mərtəbədə biznes inkubatoru, ideya bankı, Coworking mərkəzi, startap mərkəzləri nəzərdə tutulmuşdur. Dördüncü mərtəbədə 3 müzakirə otağı və 240 nəfərlik akt zalı yerləşəcəkdir.

Biopark binasında Naxçıvan faunasına aid nümunələrin yerləşdiyi muzey, APİAİR müalicə sahəsi, arı südü, arı zəhəri analizləri laboratoriyası, arı mayalandırma, barama, dovşan, ağ siçan və zəli yetişdirmə sahələri fəaliyyət göstərəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək demişdir: ***"Texnologiyalar Parkında qurulanların hamısı nanotexnologiyalara əsaslanacaqdır. Ölkəmizdə ilk dəfə olaraq bu layihəyə ağıllı texnologiyaların əlavə edilməsi texnoparkın tələblərinə tam cavab verəcəkdir. Ona görə də dünya təcrübəsinə əsaslanaraq burada universitetin profilinə və ixtisaslara uyğun nümunələr seçilib tətbiq olunmalıdır. Bu da imkan verəcək ki, Naxçıvan Dövlət Universiteti dünya universitetləri içərisində öz reytinqini artırsın. Universitetdə tədris yüksək səviyyədə ola bilər. Lakin əsas tələb dünya universitetləri sırasında öz yerini tutmaq və müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməkdir".***

Ali Məclisin Sədri Texnologiyalar Parkının layihəsinin müəllifi, universitetin Memarlıq və mühəndislik fakültəsinin müəllimi və universiteti yetirməsi, bu il isə "2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Prezident mükafatına layiq görülən İsmayıl İsmayıllıya Prezident mükafatını təqdim edərək təbriklərini çatdırmışdır. Muxtar respublika rəhbəri Texnologiyalar Parkının təməlini atmış, tikintinin keyfiyyətlə aparılması və tələblərə uyğun qurulması barədə tapşırıqlar vermişdir.

Ulu öndərimizin müqəddəs adını böyük qürur və ləyaqətlə daşıyan Hərbi Lisey tədrisin və təlim-tərbiyənin yüksək keyfiyyəti, məzunlarının uğurları ilə seçilir. İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 21-ci buraxılışı münasibətilə tədbir keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədri liseyin növbəti buraxılış mərasiminin Vətən müharibəsində qazandığımız böyük tarixi Qələbə ilə qeyd olunduğunu, Qələbənin qazanılmasında və torpaqlarımızın işğaldan azad edilməsində hərbi liseyin məzunlarının da qəhrəmanlıq göstərərək şəhid olduqlarını bildirmiş, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Muxtar respublika rəhbəri vurğulamışdır ki, Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindəki tarixi qələbəsi ölkəmizin iqtisadi qüdrəti və ordumuzun güclü maddi-texniki təminatı ilə yanaşı, həm də dövlət-xalq-ordu birliyi, əsgər və zabitlərimizin yüksək döyüş qabiliyyəti və vətənpərvərliyi nəticəsində qazanılmışdır. Bütün bunlar, heç şübhəsiz ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin bəhrələridir.

Ali Məclisin Sədri demişdir: ***"Dahi şəxsiyyətin müəyyənləşdirdiyi yolun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi qüdrətli Azərbaycan Ordusunu formalaşdırmışdır. Müstəqillik illərində ümummilli liderin qəbul etdiyi mühüm tarixi qərarlardan biri də Naxçıvanda hərbi məktəbin yaradılması olmuşdur. Əgər Sovetlər Birliyi dövründə yaradılan hərbi məktəb ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdırsa, 1998-ci ildə Naxçıvanda hərbi məktəbin yaradılması isə müstəqil ordu quruculuğu sahəsində atılan mühüm addım idi. Ötən dövrdə hərbi məktəb ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə böyük inkişaf yolu keçmişdir. Fəxr edirik ki, Heydər Əliyev adına Hərbi Lisey müstəqil dövlətimizin ordu quruculuğu işinə öz layiqli töhfəsini verir. 56 kursantla fəaliyyətə başlayan liseyin 3 mindən artıq məzunu olub. Hazırda onlardan 2 minə yaxını Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edir".***

Muxtar respublika rəhbəri kursantlara müraciətlə zabit peşəsinin çətin və şərəfli peşə olduğunu, bu peşəni seçən hər bir gəncin qarşısında hərtərəfli ali hərbi təhsil almaq, peşəkar zabit kimi yetişmək və göstərilən etimadı doğrultmaq kimi mühüm vəzifələr dayandığını bildirmiş, bu yolda kursantlara uğurlar arzulamış, hərbi liseyin 21-ci buraxılışı münasibətilə bütün kursant, zabit və müəllim heyətini, tədbir iştirakçılarını təbrik etmişdir. Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim etmiş, zabit, müəllim və kursantları mükafatlandırmış, sonra təhsil ocağının rəmzi kötüyünə xatirə birkası vurulmuş, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Liseydə yeni yaradılmış STEAM kabinəsində kursantlar hazırladıqları minaaxtaran qurğu, ağıllı hərbi baza, xətt izləyən və kəşfiyyat robotları, qaz sensoru, elektron tank, su səviyyəsini ölçən qurğuların modellərini Ali Məclisin Sədrinə təqdim etmişlər. Muxtar respublika rəhbəri müəllim və valideynlərlə də görüşərək vətənpərvər övladlar yetişdirdikləri üçün onlara təşəkkürünü bildirmişdir.

Naxçıvanda enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirlərin davamı olaraq iyunun 18-də muxtar respublikanın ərazisində ilk dəfə olaraq Culfa rayonunda yeni Külək-Günəş

Ardı 2-ci səhifədə

Hibrid Elektrik Stansiyası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Ali Məclisin Sədri istehlakçıları əlamətdar hadisə münasibətilə təbrik etmiş, stansiyanın qurulmasında əməyi olanlara təşəkkür edərək bildirmişdir ki, bu gün muxtar respublikanın inkişafının əsas hərəkətverici qüvvəsi elektrik enerjisinə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsidir. Hazırda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 50 faizdən çoxu bərpa olunan enerji mənbələri hesabına ödənilir. Bu da imkan verir ki, həm əhalinin, həm də sənayenin və iqtisadiyyatın digər sahələrinin enerji təminatı davamlı olsun.

Ali Məclisin Sədri Çin Xalq Respublikası tərəfindən qrant layihəsi olaraq muxtar respublikaya verilən və alınan əlavə avadanlıqlar hesabına 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyası qurulduğunu qeyd etmiş, Çin dövlətinə və Çinin Azərbaycandakı səfirliyinə hörmət və ehtiramını bildirmişdir.

Sonra stansiyaya baxış olmuşdur. Məlumat verilmişdir ki, stansiyanın layihələndirilməsi və qurulması Energetika Xidmətinin mütəxəssisləri, tikinti-quraşdırma işləri isə "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı tərəfindən qısa müddətdə və yüksək keyfiyyətlə aparılmışdır. Burada il ərzində 1,6 milyon kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulmuşdur. Culfa rayonunun Gülüstan kəndi yaxınlığında 3,3 hektar ayrılmış əkinəyararsız ərazidə komplektləşdirilərək tikilən 1,1 meqavatlıq yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası rayonda enerji tələbatının 10 faizdən çoxunu ödəyəcəkdir. Gələcəkdə yeni stansiyalar qurulduqdan sonra isə rayona kənardan enerji daşınmasına ehtiyac qalmayacaqdır. Stansiyada yeni iş yerləri də açılmışdır ki, bu da yeni mütəxəssislərin yetişməsinə, gələcəkdə digər stansiyaların yerli mütəxəssislər tərəfindən idarə olunmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri yeni qurulacaq Culfa yarımstansiyasının layihəsinə baxmış, işlərə başlanılması barədə tapşırıq vermişdir.

Həmin gün Ali Məclisin Sədri Culfa rayonunun Yaycı kəndinin içməli su təminatının yaxşılaşdırılması ilə bağlı layihənin hazırlanması barədə tapşırıq vermişdir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən 21-23 iyun tarixlərdə Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanlarının birgə taktiki-xüsusi təlimi keçirilmiş, iyunun 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov təlimi izləmişdir.

Təlimdən əvvəl uçuşa hazır olan "BAYRAQDAR-TB2" silahlı pilotsuz uçuş aparatına və döyüş raketlərinə, aparatın saxlanma imkanlarına baxış keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikasında pilotsuz uçuş aparatı sistemləri kursunu müvəffəqiyyətlə bitirən zabit və gizir heyəti ilə görüşmüş, xatirə şəkli çəkdirilmişdir.

Pilotsuz uçuş aparatının taktiki-texniki xassələri haqqında məlumat verilmiş, Ali Məclisin Sədri qoşunların idarə edilməsini təmin edən rabitə vasitələrinə və döyüş raketlərinin saxlanılma anbarına baxmış, Əlahiddə Ümumqoşun Ordunun Mərkəzi Qərargahında Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin idarəetmə orqanlarının birgə keçirilən taktiki-xüsusi təliminin praktik fəaliyyətlərinin icrasını izləmişdir.

Bildirilmişdir ki, mərkəz fasiləsiz olaraq cari vəziyyəti izləmək, ordu komandanını və qoşunları əməliyyat şəraiti ilə məlumatlandırmaq, əmr və sərəncamlar əsasında qoşunları istiqamətləndirmək, qoşunların və düşmən bölmələrinin fəaliyyətlərini real zamanda izləmək məqsədilə yaradılmışdır.

Taktiki-xüsusi təlimin planı ilə tanışlıqdan sonra təlimə start verilmişdir. Təlimin ssenarisinə əsasən Əlahiddə Ümumqoşun Ordunun daxili şəbəkəsində yaradılmış videokonfransda təlimə cəlb olunan birləşmə və hissə komandirləri iştirak etmiş, əvvəlcədən göndərilmiş döyüş sərəncamına uyğun olaraq yaranmış vəziyyəti məruzə etmişlər.

Coğrafi analiz sistemi haqqında məlumat verilərkən bildirilmişdir ki, sistem dünya üzərindəki kompleks ictimai, iqtisadi, ekoloji və digər problemlərin həllinə əsaslanan, qərarvermə müddətlərində istifadəçilərə kömək etmək üçün irihəcmli coğrafi məlumatların toplanılması, saxlanılması, işlənilməsi, yenilənməsi, obyektlərin təhlili, sorğulanması və əks etdirilməsi funksiyalarını yerinə yetirən təchizat, proqram təminatı, coğrafi məlumat mənbələrinin məcmusudur. Ali Məclisin Sədri Coğrafi Analiz Sisteminin yaradılmasına görə heyətə təşəkkür etmişdir.

Sonra "Qarabağlar Dağ" təlim mərkəzində keçirilən artilleriya batareyasının taktiki təlimində atəş mövqeyini tutmaq üçün hərəkətdə olan batareyanın düşmənin artilleriya atəşinə məruz qaldıqda göstərəcəyi praktik fəaliyyəti izlənilmişdir. Düşmənin müdafiə dərinliyimizə sızıb keçmiş kəşfiyyat diversiya qrupunun Daxili Qoşunların Əlahiddə Əməliyyat Briqadasının bölmələrinin pilotsuz uçuş aparatının köməyi ilə aşkar və məhv edilməsi üçün qarşılıqlı əlaqədə fəaliyyəti icra olunmuşdur. Ali Məclisin Sədri qərar qəbul edilmə, görüntü izləmə otaqlarına baxmışdır.

Muxtar respublikada sanitar-epidemioloji xidmətin fəaliyyətinin yenidən qurulması, muxtar respublika ərazisində epidemioloji şəraitin yaxşılaşdırılması istiqamətində silsilə tədbirlərin davamı olaraq iyunun 24-də Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binası istifadəyə verilmiş, Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Bina ilə tanışlıq zamanı məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan mərkəzdə müasir şərait yaradılmış, yeni obyekt, ümumilikdə, 66 adda, 156 sayda müxtəlif müasir tibbi cihazlarla təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov mərkəzdə keçirilən tədbirdə çıxış etmiş, muxtar respublikada sanitar-epidemioloji vəziyyətin qorunub saxlanılmasında səmərəli fəaliyyətlərinə görə Gigiyena və Epidemiologiya Mərkəzinin kollektivinə təşəkkür etmiş, fəsillərə uyğun fəaliyyət proqramı hazırlanaraq təsdiq olunması, yerlərdə mütəmadi dezinfeksiya işləri aparılması, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələrinin praktik fəaliyyətə cəlb edilməsi, gənc əməkdaşların işə götürülməsi, kurslar təşkil olunması, mütəmadi olaraq yoluxucu və parazitar xəstəliklərin profilaktikasının aparılması, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müvafiq ixtisasının Gigiyena və Epidemiologiya Mərkəzinə hamiliyə verilməsi ilə bağlı tapşırıqlar vermişdir. Sonra 2-si Gigiyena və Epidemiologiya Mərkəzi, 7-si rayon şöbələri, 1-i Naxçıvan Şəhər Bələdiyyəsi üçün olmaqla, 10 avtomobilin təqdimatı olmuşdur. Ali Məclisin Sədri avtomobillərə baxmış və açarları təqdim etmişdir.

Ulu öndərimiz Heydər Əliyevin böyük səylə qurduğu müstəqil dövlətimiz bu gün güclü orduya malikdir. Bu, ötən il Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən İkinci Qarabağ müharibəsində bir daha sübut olundu. Zəfərlə sona çatan müharibədə naxçıvanlı igidlərin də qəhrəmanlıq göstərməsi, 30 il yaxın davam edən işğala və haqsızlığa son qoyulmasında böyük hünər və rəşadət göstərmələri muxtar respublikada da ordu quruculuğu siyasətinin uğurla reallaşdırıldığını bir daha təsdiq etdi. İyunun 25-də – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri üçün yeni yaşayış və xidmət kompleksi istifadəyə verilmiş, Əlahiddə Ümumqoşun Ordunun İkinci Qarabağ müharibəsində iştirak edən hərbi qulluqçularına Azərbaycan Respublikası təltiflərinin təqdimatı olmuş, qüsursuz xidmət edən hərbçilərə mənzillər verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edərək demişdir: ***"Bu gün ölkə Prezidentinin ümummilli liderin yolunu uğurla davam etdirməsinin nəticəsidir ki, müstəqilliyimizin və dövlətçiliyimizin qarantı olan güclü ordumuz vardır. Naxçıvan Muxtar Respublikasında da müdafiə təhlükəsizliyinin təmin olunması, hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi, döyüş hazırlığının yüksəldilməsi və hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Müstəqillik illərində muxtar respublikada 300-ə yaxın hərbi təyinatlı obyekt istifadəyə verilmiş, hərbi qulluqçuların və ailələrinin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır. Bu gün istifadəyə verilən yeni yaşayış və xidmət kompleksi, eləcə də təqdim olunan mənzillər ordu quruculuğu tədbirlərinin tərkib hissəsidir. Muxtar respublikada hərbi qulluqçuların döyüş hazırlığı da artırılmışdır. Qarşıya qoyulan istənilən vəzifə və tapşırıqlar yüksək hərbi səriştə, peşəkarlıq və vətənpərvərliklə yerinə yetirilir".***

Sonra Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15, 18 və 30 dekabr tarixli sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət", "Azərbaycan Bayrağı", 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə, "Vətən uğrunda", "İgidliyə görə", "Hərbi xidmətlərə görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularına orden və medallar, Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-mayor Fazil Ağalarova Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyun tarixli Sərəncamı ilə verilən "general-leytenant" ali hərbi rütbəsi təqdim edilmişdir.

Ali Məclisin Sədri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara mənzillərin orderlərini də təqdim etmiş, hərbi hissələrdə yaradılan şəraitlə tanışlıq olmuşdur.

Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi tədbirlərinin davamı olaraq həmin gün Əlahiddə Ümumqoşun Orduya 22 "Mitsubishi L200" markalı xidməti avtomobil təqdim olunmuşdur. Sonra Ali Məclisin Sədri Əlahiddə Ümumqoşun Ordunun Texnika parkına, silah və optik cihazlar anbarına baxmışdır. Baxış zamanı bildirilmişdir ki, parkın dam örtüyü yenilənmiş, fasad hissəsi üzlənmiş, beton örtüyü verilmişdir. Silah və sursatların saxlanılması üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri muxtar respublikada ordu quruculuğu işlərinin kompleks şəkildə aparıldığını və əhalinin təhlükəsizliyinin təmin olunduğunu bildirmiş, bu sahədə görülən işlərin əhəmiyyətini vurğulamış, Türkiyə Silahlı Qüvvələrinin ordu quruculuğu tədbirlərindəki fəaliyyətindən bəhs etmiş, Silahlı Qüvvələr Gününün böyük Qələbə ilə qeyd olunduğunu diqqətə çatdırmışdır.

Şəhidlərimizə dərin ehtiram, onların ailələrinin sosial müdafiələrinin gücləndirilməsi istiqamətində həyata keçirilən silsilə tədbirlərin davamı olaraq 26 İyun – Silahlı Qüvvələr Günündə Naxçıvanda şəhid ailələrinə yeni mənzillər təqdim olunmuşdur. Ali Məclisin Sədri cənab Vasif Talıbov tədbirdəki çıxışında bildirmişdir ki, İkinci Qarabağ müharibəsində igid oğullarımız torpaqlarımızı işğaldan azad edərək böyük Qələbə qazanmış, qəhrəmanlıq və şücaət göstərərək ən ali məqama – şəhidlik zirvəsinə yüksəlmiş, ailələrinə isə şəhid adının şöhrətini qazandırmışlar. Ali Məclisin Sədri qəhrəman şəhidlərimizin əziz xatirəsini yad etmiş, şəhid ailələrinə yeni mənzillərdə xoş və rahat həyat arzulamış, mənzillərin orderlərini şəhid ailələrinə təqdim etmişdir. Şəhid ailələrinə verilən 2 və 3 otaqlı mənzillər Şərur, Babək, Şahbuz və Naxçıvan şəhərlərindəki yaşayış binalarında yerləşir. Tam təmir olunan mənzillərə mebel dəstləri qoyulmuş, lazımi kommunal şərait yaradılmışdır.

*Ötən ayın ümumi mənzərəsi bir daha onu deməyə əsas verir ki, muxtar respublikamızda sosial-iqtisadi inkişaf, ordu quruculuğu, müdafiə qüdrətinin artırılması, insanların sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində aparılan işlər kompleks və məqsədyönlü şəkildə, uğurla həyata keçirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvana növbəti səfərində dediyi kimi:* ***"Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" mövzusunda konfrans olub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" mövzusunda onlayn beynəlxalq konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən Naxçıvanın hərtərəfli tədqiqi məqsədilə yaradılan Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin çox sayda yerli və beynəlxalq əhəmiyyətli konfranslara ev sahibliyi etməsindən, keçirilən tədbirlərin beynəlxalq səviyyəli əlaqələrin inkişaf etdirilməsindəki önəmindən bəhs edib. Qeyd olunub ki, Türkiyə Cümhuriyyətinin Ərzurum Atatürk Universiteti, Samsun 19 Mayıs Universiteti, Qars Qafqaz Universiteti, Azərbaycan Milli Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat institutları, Bakı Dövlət Universiteti, muxtar respublikadakı ali təhsil müəssisələri və AMEA Naxçıvan Bölməsi əməkdaşlarının iştirak etdiyi "Naxçıvan: tarixi, mədəniyyəti, təbii sərvətləri və müasir inkişafı" mövzusunda onlayn beynəlxalq konfrans tədqiqatçıların Naxçıvanla bağlı araşdırmalarının beynəlxalq səviyyədə təhlilinə xidmət edir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli konfransda "Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında ədəbi proses" mövzusunda məruzə edib. Məruzədə qeyd olunub ki, Naxçıvanda müstəqillik illərində həyatın bütün sahələrində inkişaf təmin olunmuşdur. Bu inkişaf və yüksəliş ədəbiyyat və mədəniyyətimizin zənginləşməsinə, təkmilləşməsinə, şübhəsiz, öz təsirini göstərmişdir. Alim 100 illik inkişaf yolu keçmiş "Şərq qapısı" qəzetinin Naxçıvan ədəbi mühitinin formalaşmasında və ədəbi prosesin inkişafında xüsusi rolu olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, Naxçıvanda ənənəvi yaradıcılıq nümunələri ilə yanaşı, yeni üslub təmayülləri də formalaşmışdır. Bu isə ədəbi proses və ədəbi mühit məsələlərinin yüksək inkişaf səviyyəsində olduğunu göstərir ki, bu da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elm və mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğının parlaq təzahürüdür.

Ərzurum Atatürk Universitetinin professoru Hüseyn Yurttaş "Naxçıvan Qarabağlar türbəsi və Anadoluda əksi" adlı məruzəsində zəngin memarlıq ənənələrinə malik Naxçıvanın tarixi abidələri haqqında ətraflı məlumat verib, bu ənənələrin Anadolu abidələri ilə oxşarlıq və eyniyyət təşkil edən məqamlarını təqdimat vasitəsilə konfrans iştirakçılarına nümayiş etdirib. Olduqca maraqlı mövzunu əhatə edən məruzədə Azərbaycan və Türkiyə arasında mənəvi və mədəni bağların mənşəyinə nəzər salınıb.

Sonra AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərlinin "Naxçıvan şəhəri qədim və orta əsrlər dövründə Azərbaycanın mühüm mədəniyyət mərkəzlərindən biri kimi" və Ərzurum Atatürk Universitetinin professoru Kərəm Karabulutun "Qarabağ zəfəri və Qars-İqdır-Naxçıvan dəmir yolunun önəmi", AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Azərbaycanın dövlətçilik tarixində Naxçıvanın yeri və roluna dair" mövzusunda məruzələri dinlənilib.

Məruzələrdə möhtəşəm Qarabağ Zəfəri, bu qələbənin Azərbaycan, eləcə də mühüm strateji mövqeyə malik Naxçıvan üçün önəmindən, yaxın gələcəkdə fəaliyyətə başlayacaq Qars-İqdır-Naxçıvan dəmir yolu xəttinin hər iki qardaş ölkə üçün mühüm iqtisadi əhəmiyyətindən danışılıb. Qeyd olunub ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsi nəticəsində muxtar respublikanın hərtərəfli inkişafına nail olunmuşdur. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir.

Plenar iclasın ardından konfrans bölmə iclasları ilə öz işini davam etdirib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# İctimai təhlükəsizliyin qorunması diqqətdə saxlanılır



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi iyun ayında fəaliyyətini qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi istiqamətində qurmuşdur. Bu dövrdə vətəndaşlar arasında hüquqi maarifləndirmə tədbirləri diqqətdə saxlanılıb, profilaktikaya geniş yer verilib.*

Ay ərzində aparılan maarifləndirmə işləri nəticəsində əhalidən 2 avtomat, 1 pulemyot, 1 tapança, 1 TOZ-8, 1 qaz tapançası, 2 ov silahı, 2 tir silahı, 3 əl qumbarası, 3 süngü bıçaq, 7 xəzinə, 378 döyüş sursatı götürülüb. Hesabat dövründə yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili də diqqətdə saxlanılıb, ümumtəhsil məktəblərində bir sıra məqsədyönlü tədbirlər görülərək şagirdlərlə 40 görüş keçirilib. Görüşlər zamanı yetkinlik yaşına çatmayanlarla idmanın əhəmiyyəti, onun insan sağlamlığına müsbət təsiri, həmçinin sağlam həyat tərzi və yol hərəkəti təhlükəsizliyi qaydaları barədə maarifləndirici söhbətlər aparılıb.

İyun ayında polis sahə inspektorları da üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşaraq mülki hüquqi öhdəliklərin icrasından yayınan 4 nəfər barəsində axtarış işi açıb, həmin şəxslərin hamısı tutularaq açılma göstəricisi 100 faiz təşkil edib. Nazirliyin Dövlət Yol Polisi İdarəsi tərəfindən 514 sürücülük vəsiqəsi, 321 dövlət qeydiyyat nişanı, 648 qeydiyyat şəhadətnaməsi verilib, 50 nəqliyyat vasitəsinin ilkin, 630 nəqliyyat vasitəsinin təkrar qeydiyyatı aparılıb. Həmçinin ay ərzində ümumvətəndaş pasportu və şəxsiyyət vəsiqələrinin vaxtlı-vaxtında verilməsi də diqqətdə saxlanılıb, 972 nəfər ümumvətəndaş pasportu, 5177 vətəndaş şəxsiyyət vəsiqəsi ilə təmin olunub. Həmçinin nazirliyin "Səyyar xidmət"i tərəfindən vətəndaşlara göstərilən xidmət də davam etdirilib. Belə ki, Şərur, Babək, Şahbuz və Kəngərli rayonlarında 1376 vətəndaşa şəxsiyyət, 100 vətəndaşa sürücülük vəsiqəsi, 6 nəfərə məhkumluq haqqında arayış verilib.

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidməti***

## 6 ay ərzində 193 nəfərə elektron imza sertifikatı verilib

Elektron imza – elektron məkanda imzalamanı təmin edən və bütün beynəlxalq təhlükəsizlik standartına cavab verən tam təkmil imzalama vasitəsidir. Elektron hökumətin əsas atributlarından sayılan elektron imza muxtar respublikada da uğurla tətbiq edilməkdədir. Elektron imza, "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən informasiya təhlükəsizliyini təmin edən bir vasitədir.

Elektron imza sertifikatının tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinin bir sıra üstünlükləri vardır. Belə ki, vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsini və vətəndaş-hökumət arasında elektron informasiya münasibətlərini təmin edir.

Muxtar respublika üzrə cari ilin ilk 6 ayı ərzində 78 dövlət qurumu, 38 hüquqi şəxs, 73 sahibkar və 4-ü vətəndaş olmaqla, ümumilikdə, 193 nəfərə elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Elektron imzadan bütün vətəndaşlar, fiziki şəxslər, hüquqi şəxslər və dövlət orqanları istifadə edə bilərlər. Elektron imzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu dövlət qurumları üçün 58, hüquqi şəxslər üçün 72, sahibkarlar üçün 36, vətəndaşlar üçün isə 18 AZN təşkil edir, istifadə müddəti isə 3 ildir.

Qeyd edək ki, elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *www.rabite.nmr.az* saytı vasitəsilə əldə etmək olar.

Azərbaycan Respublikasının qanunlarına əsasən elektron imza ilə imzalanan elektron sənəd əl imzası ilə imzalanan və möhürlənən sənədə bərabər tutulur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublika ilə tanışlıq xoş təəssürat yaradıb

*Ölkəmizin digər regoinlarından olan sağlamlıq imkanları məhdud şəxslərin muxtar respublikaya səfəri təşkil olunub.*



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə ölkəmizin digər regionlarından olan 62 nəfər sağlamlıq imkanları məhdud şəxs yaradılan şəraitdən bəhrələnməklə, Duzdağ Fizioterapiya Mərkəzində müalicə alıb, istirahət edib. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə onlar üçün burada nahar süfrəsi ətrafında sağlamlıq imkanları məhdud şəxslərdən ibarət "İnam" musiqi qrupunun konsert proqramı da təşkil olunub. Sonra qonaqlar muxtar respublikanın turizm əhəmiyyətli məkanlarını, dini-mədəni abidə komplekslərini ziyarət ediblər. Səfər onlarda xoş təəssürat yaradıb, onlar göstərilən qayğı və yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, muxtar respublikaya belə səfərlərin qarşıdakı dövr ərzində də davam etdirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Tədbir keçirilib

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının tədbiri olub.*



Təşkilatın sədri Yaşar Xəlilov çıxış edərək bildirib ki, muxtar respublikada musiqi sənətinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz görkəmli dövlət xadiminin böyük qayğısı sayəsində 1978-ci ilin sentyabr ayında Naxçıvanda Azərbaycan Bəstəkarlar İttifaqının səyyar plenumu keçirilib və ilk dəfə olaraq burada Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan Təşkilatı yaradılıb.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatına böyük qayğı göstərilir, bəstəkar və musiqişünasların sənətkarlıq baxımından inkişafı üçün hər cür şərait yaradılır. 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yaradıcı ziyalılarla görüşündən sonra Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Təşkilatının fəaliyyətində də ciddi dönüş yaradılıb. Təşkilat muxtar respublikanın ictimai-mədəni həyatında yaxından iştirak edir, musiqi mədəniyyətimizin zənginləşməsi yolunda səyini əsirgəmir. Artıq diyarımızda tələbkar yaradıcılıq mühiti formalaşdırılıb. Naxçıvanın müasir bəstəkarları bir sıra maraqlı əsərlərin müəllifləri kimi tanınırlar. Onların müxtəlif janrlarda yazdıqları əsərlər muxtar respublikamızdan kənarda da müəlliflərinə böyük uğur gətirir.

Sonra Yaşar Xəlilov gənc bəstəkarlardan Hakim Məmmədova, Polad Vəliyə və musiqişünas Ramiyə Məmmədovaya üzvlük vəsiqələrini təqdim edib. O bildirib ki, Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Nizami ili" çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkil etdiyi gənc bəstəkarlar arasında "Nizami Romans" respublika müsabiqə-festivalında iştirak etdiyinə görə ittifaqın üzvü Hakim Məmmədov Fəxri fərmanla təltif olunub.

Onu da qeyd edək ki, Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş Azərbaycan bəstəkarlarının romanslarından ibarət "Nizami Romans" və "Musiqi aləmi" adlı kitabların təqdimatı da keçirilib.

Sonda tədbir gənc bəstəkarların bir-birindən maraqlı ifaları ilə davam edib.

**Telli MƏMMƏDOVA**

## *"Yay məktəbi"*ndə şagirdlərə STEAM təhsili öyrədildi



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Həmkarlar İttifaqı Şurasının birgə təşkilatçılığı ilə keçirilən "STEAM yay məktəbi" uğurla başa çatıb.

Muxtar respublikamızda ilk dəfə təşkil olunan "Yay məktəbi"nin əsas məqsədi şagirdlərin STEAM ilə tanışlığı, yeni dərs ilində tədris olunacaq dərsləri daha asan mənimsəmələri, bu yeni metodun ana prinsiplərindən biri olan qrup şəklində çalışmaq bacarıqlarını inkişaf etdirməkdən ibarət olub.

Ağbulaq İstirahət Mərkəzində təşkil olunan 4 günlük "Yay məktəbi"ndə şagirdlər innovativ təlim metodları kimi istiqamətlərdə biliklərini daha da genişləndiriblər. Təhsil Nazirliyi tərəfindən tədris mövzularına uyğun olaraq birinci gün STEAM metodologiyaları, ikinci gün 3D modelləşdirmə və 3D çap, üçüncü gün lego modellərindən robotların hazırlanması, elektrik mühəndisliyi, sonuncu gün isə layihələrin hazırlanması proqramlaşdırma modulu, mikrobit platforması və mühəndislik dizayn dərsləri tədris olunub.

STEAM təlimləri vasitəsilə şagirdlər ilkin STEAM anlayışlarını, 3D printerlərlə işləmə üsullarını, fərdi şəkildə 3D printerləri işə salmağı və çapa start verməyi, öz fərdi modellərini tinkercard ilə hazırlamağı, bu bilikləri hər birini vahid bir layihə üzərində birləşdirməyi və bunları qrup şəklində etməyi mənimsəyiblər.

Təlimi uğurla başa vuran şagirdlər təşkilatçılar tərəfindən "STEAM yay məktəbi"ndə iştirak etdiklərinə görə sertifikatla təmin ediliblər. "STEAM yay məktəbi" şagirdlər tərəfindən rəğbətlə qarşılanıb.

Növbəti "STEAM yay məktəbi" 13-16 iyul tarixlərində təşkil olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Əhalinin sağlamlığının qorunması başlıca amildir

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini iyun ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, idarə olunan yoluxucu xəstəliklərin immunoprofilaktikası məqsədilə peyvənd materialları, şpris və işlənmiş şprisləri yığmaq üçün konteyner, Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS-lə Mübarizə Şöbəsinə reaktivlər, test və tibbi materiallar, dezinfeksiyaedicilər, dərman preparatları gətirilib.

Hesabat ayında tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilib. 1 həkim-rezident Türkiyə Respublikasına, 1 həkim Bakı şəhərinə, 1 həkim və 1 rezident Naxçıvan şəhər tibb müəssisələrində iş yerində təcrübə keçmək üçün göndərilib. Tibb Kollecinin 12 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 356 tələbəsi istehsalat təcrübəsi keçməsi üçün tibb müəssisələrinə göndərilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına ötən ay da əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər. Belə ki, Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin həkim briqadası Ordubad Rayon Mərkəzi Xəstəxanasında 172 nəfəri, Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Kəngərli Rayon Mərkəzi Xəstəxanasında 259 nəfəri hərtərəfli tibbi müayinədən keçirib.



Ötən ay Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin çağırışçı həkimləri Culfa Rayon Mərkəzi Xəstəxanasında aksiya təşkil ediblər. Aksiyada məqsəd sakinləri operativ şəkildə erkən müayinə, müalicə etmək, ekstremal və fövqəladə vəziyyətlərdə ilkin tibbi yardım tədbirləri haqqında ətraflı məlumatlandırmaqdan ibarət olub.

Səhiyyə Nazirliyinin çoxprofilli həkim briqadası tərəfindən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qapalı Rejimli Cəzaçəkmə müəssisəsində məhkumların hərtərəfli profilaktik tibbi müayinəsi aparılıb, 63 nəfər səyyar flüoroqrafiya müayinəsindən keçirilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən 6 nəfərdə müayinə, 6 nəfərdə cərrahi müdaxilə aparılıb.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Şahbuz Rayon Turizm-Diyarşünaslıq, Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq mərkəzlərində, şahmat və idman məktəblərində işləyən təhsil işçilərindən 28, şəhər sakinlərindən isə 23 qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, 7 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib. Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin yaratdığı həkim briqadası Babək rayon Cəhri kəndində 15 nəfərdə laboratoriya, 37 nəfərdə USM, 37 nəfərdə ginekoloji, 5 nəfərdə pediatrik müayinə aparıb. Həmçinin həkim briqadası Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin 11 qadın işçisini USM müayinəsindən keçirib.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası isə Babək rayon Nehrəm qəsəbəsi 1, 2 və 3 nömrəli, Naxçıvan şəhər 10 nömrəli tam orta məktəblərində IX, X və XI sinif şagirdlərindən 313 şagirdi səyyar flüoroqrafiya müayinəsinə cəlb edib, xəstə aşkar olunmayıb.

COVID-19 xəstəliyinə qarşı profilaktika tədbiri olaraq iyun ayında 5 min 545 nəfərdə I tur və 4 min 92 nəfərdə II tur vaksinasiya aparılıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi iyun ayı ərzində 23 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 6 nəfəri Naxçıvan Əlillərin Bərpa Mərkəzinə, 2 nəfəri Naxçıvan Uşaq Bərpa Mərkəzinə reabilitasiya müalicəsinə və 1 nəfəri Bakı şəhərinə müalicəyə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



# Ey mənim ürəyim, canım Ordubad, Şöhrətim, şərəfim, şanım Ordubad!

*Tarixin bütün dönəmlərində bu qədim yurd yeri barədə yüksək fikirlər söylənildiyini oxumuşam. Göylərə boyverən möhtəşəm Soyuq, Bəlgə, Fələkbaba, Əcnəvir dağları, füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri, dadlı-tamlı meyvələri, görkəmli elm xadimləri ilə tanınan və ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad bu gün özünün yeni inkişaf mərhələsindədir. Qədimliklə müasirliyin vəhdətini hər addımda gördüyümüz Ordubad şəhəri haqqında görkəmli adamlar, tanınmış səyyahlar, buraya gələn qonaqlar ən yüksək təəssüratlara malik olduqlarını dilə gətiriblər. Ordubadın şəninə şeirlər yazılıb, mahnılar qoşulub. Həmin təəssüratların, həmçinin ordubadlıların dillər əzbəri olan mahnı və şeirlər bu yazını qələmə almağıma səbəb oldu.*

Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, gözəl şairimiz mərhum Hüseyn Razi bu qədim yurd yerini belə tərənnüm edirdi:

*Dağlarımda neçə əsrin qarı var,*
*Bağlarımda neçə fəslin barı var.*
*Təmiz arzu, böyük qayə, düz ilqar,*
*Mənə çatıb bu dövrandan hədiyyə.*

Ordubadda səfərdə olmuş amerikalı jurnalist və tədqiqatçı Peter Tasenin bu qədim bölgəyə verdiyi qiymət hər bir sakində qürur doğurur: "Ordubadın gözəl mənzərəsi var. İnsanları çox qonaqpərvər və istiqanlıdır. Gözəl mənzərələr və müasir infrastruktur turistlərin diqqətini cəlb edir. Ordubad şəhərində yaradılmış infrastruktur, həqiqətən də, Qərbi Avropanın şəhərlərindəki kimidir. Tarixən strateji yer hesab olunan Ordubada səfər edən turist və tədqiqatçılara buranın qədim mədəniyyətini tanıtmaq imkanı vardır. Ordubad şəhərində hazırda muzey kimi fəaliyyət göstərən tarixi Qeysəriyyə binası var. Tarixən bu regionda 3 belə Qeysəriyyə binası olub. Digər iki Qeysəriyyə binası Səmərqənd və Təbrizdədir.



Bu gün valehedici Ordubad şəhəri Şərq aləminin canlı muzeyi hesab olunur. Avropa və Asiya arasında coğrafi və etnoqrafik əlaqəni təmin edən şəhər öz tarixini və ənənələrini qoruyaraq nəsildən- nəslə ötürür".

Burada yadıma gözəl şairimiz mərhum Elman Həbibin misraları düşür:

*Bu yerlərin sükutu da dinəndi,*
*Ordubadım dağlarıma güvəndi,*
*Dağlarımın nəğməsini Dübəndi*
*Çatdırıbdı əsrlərdən bizəcən.*

"Günəş Ordubadın ulduzudur. O, behiştə verilən tərifə layiqdir. Huri-mələklərin gözünü onun Nəzərə dağı işıqlandırır". XVII əsr tarixçisi İsgəndər Münşiyə aid olan bu çox düzgün qənaətin izahına ehtiyac olmadığını düşünürəm və rayonun ən yaşlı sakini, ömrünün doqquzuncu onilliyində dünyasını dəyişmiş el ağsaqqalı Ələkbər Əmirovun sözlərini xatırlayıram: "Ordubadın dünənini görən birisi kimi deyə bilərəm ki, buranın təbiət gözəlliklərinə, tarixi abidələrinə Ordubada gələn qonaqlar heyranlıqla baxırlar. Qədim məhəllələri İçərişəhəri xatırladan Ordubadın çinarları, məscidləri, kəhrizləri ilə məşhur olan bu yurd yerinə, əfsuslar olsun ki, sovet dönəmində bir o qədər qayğı göstərilmədi. Ancaq son illərdə burada görülən işlər Ordubada yeni gözəlliklər bəxş edib. Camaatımız da sağ olsun ki, belə gözəlliklərə qiymət verməyi, onları qorumağı bacarırlar".



Doğma Ordubadın belə gözəllikləri Zərnigar Əliyevanı da ilhama gətirib:

*Böyük arzularla ucalmaqdasan,*
*Günəşə boylanıb parlamaqdasan,*
*Ey mənim ürəyim, canım Ordubad,*
*Şöhrətim, şərəfim, şanım Ordubad!*

Ordubad şəhərinə xüsusi gözəllik verən, min bir zümzümə ilə axan Dübəndi çayı üzərində salınmış körpü və əyləncə yeri son illərin quruculuq ərməğanlarıdır. Burada düzəldilmiş süni şəlalə əraziyə xüsusi yaraşıq verib. Ordubadlı şair Hüseyn Əzimin poetik misralarını xatırlayıram. Şair bu gözəllikləri elə ustalıqla qələmə alıb ki, şeiri oxuyarkən özünü o ünvanda hiss edirsən, gördüklərin qəlbinə bir təravət bəxş edir:

*Hər yanın gül-çiçək, hər yanın çəmən,*
*Səndən həyat alır lalə, yasəmən.*
*Sən ki yaranışdan belə gözəlsən,*
*Yoxdur bərabərin Dübəndi çayı.*

Görkəmli ədəbiyyatşünas alim Firudin bəy Köçərli Ordubada bir ayrı cür qiymət verir: "Ordubadın ab-havası mötədildir. Özü də bağ-bağat içində basəfa yerdə vaqe olubdur. Ordubadın meyvələri və məhsulları az yerdə tapılır". Bu yurdda yetişdirilən meyvələr dünya sərgilərinə çıxarılıb. Bağlar diyarı kimi də tanınan Ordubadda gözəl meyvələr yetişdirilir. Ötən əsrin sonlarında böyük həcmdə meyvə bağlarının kökünə balta çalınsa da, artıq yeni salınan bağlar bu itkini unutdurmaqda, meyvəçiliyin şöhrəti özünə qaytarılmaqdadır. Ordubadın mətbəxi də özünəməxsusluğu ilə seçilir.

Şair Muxtar Qasımzadə də Ordubadla bağlı xeyli şeir qələmə alıb, buranı cənnətə bənzədib. Yaradıcı insanlar üçün ilham qaynağı olan bu yurd yerinin poetik lövhəsini yaradıb.

*Cənnət adlı bir aləmə*
*Yeri düşmüş Ordubadın*
*Mis qayası döymə-döymə,*
*Naxış-naxış Ordubadın.*

Tarix elmləri doktoru, professor Teymur Bünyadov da Ordubadın əsrarəngiz təbiətinə vurulub. Ordubada yüksək qiymət verən alim yazır: "Ordubadda gözəlliklərdən doymursan, öz-özünə deyirsən: Ordubadı görməyən nə Vətən görüb, nə vətənpərvərlik görüb, nə də gözəllik duyub".

Belə təəssüratlar, şeirlər onlarla, yüzlərlədir. Mən isə Teymur Bünyadova istinadən deyərdim ki, Ordubadı olduğu kimi görmək, onun gözəlliklərini duyub zövq almaq üçün bu torpağa qonaq gəlin!

**Bahar ƏLİYEVA**
***"El həyatı" qəzetinin əməkdaşı***

# Gizli cənnət

***İnsana təbiət mənzərələrindən çox dinclik bəxş edən ikinci bir gözəllik yoxdur. Çay kənarı, göl mənzərəsi, quşların məhəbbət sədası fonunda ağacların kölgəsi, yay aylarında belə diş göynədən bulaqların ətrafı... Bəzən, sadəcə, bir gilə su şırıltısı belə insanı bütün stress və yorğunluqlardan arındırır, ruhunu təzələyir... Bu səbəbdən də, necə deyərlər, istirahət günlərinin xoş və mənalı keçməsini istəyənlər, sağlamlığının qədrini bilənlər fürsət düşdükcə özünü hansısa bir təbiət abidəsinin qucağında tapır. Gərgin iş həftəsinin ardından ötən şənbə günü fürsət bilib özümüzü ana təbiətin ağuşuna atmışdıq. Ordubadın təbiət gözəli Pəzməri şəlaləsini ziyarətimizlə bağlı olduqca gözəl təəssüratlarımızı sizinlə də paylaşmaq istədim.***

Bəli, təbiətlə baş-başa qalmaq üçün yer seçimimiz Ordubadın baş tacı olan Pəzməri idi. Çünki bura təmiz havası, gözəl təbiət mənzərələri və ən əsası da şəlalələri ilə zəngin turizm potensialına malikdir. Yəqin ki, bu yerlərin təbiət inciləri sırasında Pəzməri şəlaləsinin füsunkar şöhrətini eşidib-bilməyən yoxdur. Bu təbiət gözəlini fotolardan, videolardan çox görmüşdüm. İndi isə, budur, həmin füsunkar gözəlliklə üz-üzəyəm.

Maraqlıdır, insan həyatında gözəl olan hər şey asan əldə edilmir. Bəlkə də, onu dəyərli edən də məhz budur, elə Pəzməri şəlaləsi kimi. Bu təbiət incisi kənddən çox da uzaqda deyil. Lakin irəlilədikcə qarşımızda sinə gərən sərt dağların, qayaların yaratdığı çətinliklər yolu bir qədər uzadır. Başlanğıcını 3 min metr yüksəklikdən götürən çayın insanlara bəxş etdiyi bu gözəl mənzərədən zövq almaq üçün avtomobillə dolanbac yollar qət etdik. Bəri başdan deyim ki, əgər buralara yolunuz düşərsə, sizi Pəzməri şəlaləsinə iki yol aparacaq. Biri dağların zirvəsindən üzüaşağı, digəri isə çay vadisi boyunca şəlaləyə doğru uzanır. Biz qısa olsun deyə nisbətən çətin yolu seçib dağ enişə irəlilədik.

Bu ünvanı əbəs yerə "Azərbaycanın incisi" Ordubadın "baş tacı" adlandırmırlar. Çünki bu mənzərənin, sadəcə, bir adı var: möhtəşəm. Pəzməriyə gəlmək üçün yollar nə qədər çətin olsa da, onun valehedici gözəlliyini gördükdə çətinliklə getdiyimiz yolların yorğunluğunu bir anda unutduq.



Bir neçə dəqiqədən sonra buludların hakim kəsildiyi dağların zirvəsindən o əsrarəngiz mənzərənin şahidi olduq. Yüksəklikdən durub seyr etdikdə uzaqdan da olsa, gördüyümüz bu ilk mənzərə bütün diqqətimizə hakim kəsildi. Dağların arasından "zülfünü" üzüaşağı sərən şəlalə gördükcə doymayacağın füsunkar bir mənzərə canlandırdı gözlərimiz önündə. Bu məqamda sizə həmin an keçirdiyim hisslərdən söz açmaq istərdim. Sözün açığı, ilk keçirdiyim həyəcan dolu hiss bu oldu; indiyədək bu yerlərə gəlib çıxmadığıma görə heyifsiləndim. Sərt qayaların arasından yol tapıb özünü 30 metr aşağı atan suyun yaratdığı görüntüsü ilə "gizli cənnət"dir Pəzməri. Bura foto həvəskarlarını, təbiətdən zövq alanları özünə heyran qoyur. Buna gəlib öz gözlərinizlə şahidlik etdikdə tam əmin ola bilərsiniz.

Səfər əsnasında mənbələrdən maraqlanıb öyrənmişdim ki, dəniz səviyyəsindən 2100 metrdən yüksəkdə gurlayan Pəzməri şəlaləsi axının sürəti və su sərfi baxımından digər şəlalələrdən fərqlənir. Ümumiyyətlə, Pəzməri Azərbaycandakı ən böyük şəlalələrdən biridir. Onun nisbi hündürlüyü, təxminən, 30 metrə yaxındır.

Dağların qoynundan üzüaşağı irəliləmək o qədər rahat olmasa da, bu təbiət gözəlinə bir an öncə qovuşmaq, onun narın damlalarından həzz almaq istəyi bizi məsafələri qısa zamanda qət etməyə ruhlandırırdı. İrəlilədikcə şəlalə də, sanki bizi gözləyirmiş kimi, xoş sədası ilə insanları qoynuna səsləyirdi. Məsafələr azaldıqca onun heyranedici səsi bizə bir az daha yaxın gəlirdi...

Mümkün olan yerə qədər avtomobillə, ardınca dağların qoynu ilə uzun müddət irəliləyib, nəhayət ki, özümüzü Pəzməri şəlaləsinin ağuşuna atdıq. Səsi nə qədər gur olsa da, bu səs insana hüzur verir. Budur, şəlalənin gur səsi artıq daha aydın eşidilir. Təbiətin daha bir xoş melodiyası... Sözlə ifadə edilməsi çətin yox, mümkünsüz bir melodiya deyərdim...

Dərəyə endikdə sarı qayaların ətəyindəki ağ libaslı bu gözəllik qarşısında heyrətimizi gizlədə bilmədik. Az öncə, sanki ayaqlarımızın altında çağlayan şəlalə indi qulaqbatırıcı səsi və hündürlüyü ilə əzəmətli görünür. Bu heyranedici mənzərəni seyr edib, qayalarda əks-sədasını yüksəldən suyun melodiyasını dinlədikdən sonra bircə hiss duyğularımıza hakim kəsilir: bu qədər yolu gəlməyə dəyər.

Bir məqamı da vurğulayım ki, havanın kifayət qədər isti olmasına baxmayaraq, kilometrlərlə yol qət edən şəlalənin suyu olduqca sərindir. Şəlalə töküldüyü yerdə kifayət qədər dərinlikdə bir çuxur da yaradıb. Sərt qayalara çırpılaraq onlarla metr yüksəklikdən tökülən şəlalənin çılğın suyu aşağı çatdıqda sakitləşib rahatlıq tapır. Buraya gələn hər kəs kimi biz də ətəyimizi çırmalayıb Pəzmərinin sərin suyunda rahatlıq tapdıq. Yüksək axın sürəti ilə ətrafa çilənən narın su damlalarının xəfif toxunuşunun bəxş etdiyi sərinlik və rahatlıq isə sözlə ifadə edilməyəcək bir hissdir. Gözlə görülməyəcək qədər narın olan bu damlaların Günəşin şəfəqləri ilə birləşib yaratdığı kiçicik göy qurşaqlarından həzz almamaq isə mümkün deyil.

Qeyd edim ki, Pəzməridə eyniadlı böyük şəlalədən başqa bir neçə kiçik şəlalə də mövcuddur. Bu şəlalələr ərazidə olduqca füsunkar mənzərə canlandırır. Onlardan biri elə Pəzməri şəlaləsindən bir qədər yuxarıda çağlayır. Pilləvarı görünüşü ilə diqqətçəkən bu şəlalə Pəzməri çayının ən bol sulu qolu olan Qaplançayın üzərində yerləşdiyindən bölgənin sakinləri tərəfindən "Qaplan şəlaləsi" adlandırılır. Bu adın özü də diqqətçəkicidir. Çünki bu ad nadir fauna nümunələri ilə seçilən, bəbirlər, dağ keçiləri, muflonlar diyarı Ordubad dağlarında həm də vaxtilə qaplanların çox olması ilə əlaqələndirilir.

Onu da qeyd edim ki, yaxın aylarda bura yolu düşənlər daha abad Pəzmərinin şahidi olacaqlar. Kəndin yolları yenidən qurulur, burada turizm guşələri yaradılır. Bütün bunlar Pəzmərinin turizm imkanlarını daha da artıracaq. Kənddə həmsöhbət olduğum yaşlı sakinlərdən birinin də dediyi kimi, heç vaxt ağlımıza gəlməzdi ki, bu uca dağların qoynunda mürəkkəb relyefə malik bu ərazilərdə nə vaxtsa dağların bağrı yarılacaq, kəndə müasir asfalt yollar salınacaq.

*Yaz və yay aylarında muxtar respublika sakinləri deyil, digər bölgələrdən də çoxsaylı qonaqlar təşrif buyurur buraya. Təbiətdən zövq alaraq istirahət etmək istəyənlər üçün bura ideal məkandır. Bir sözlə, Ordubadın bu "gizli cənnət"i şəlalələri və ətraf mənzərələri ilə bu ünvana gələn hər kəsi ovsunlayır. Bu cənnətin sehrinə düşmək istəyirsinizsə, mütləq siz də təşrif buyurun.*

**✍ Gülcamal TAHİROVA**

## İtmişdir

Seyidova Nərmin Fazil qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş AA-088706 nömrəli diplomun iç vərəqəsi itdiyindən etibarsız sayılır.

***

Abbasov Emin Heydər oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yarımca kənd sakini İsmayılov İsmayıl Həsən oğlunun adına olan JN-59$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 549**